İPƏK YOLU, No.2, 2017, səh.157-165

# AZƏRBAYCANIN İQTİSADİ FƏALİYYƏT SAHƏLƏRİ ƏSASINDA ÜMÜMI DAXİLİ MƏHSULUN YÜKSƏLDİLMƏSİNİN STRATEJİ İSTİQAMƏTLƏRİ

**Q.S. Süleymanov, G. Quliyeva, A. İsmayilova**

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Bakı, Azərbaycan
e-mail: guliyeva_guler@list.ru

**Xülasə**. Azərbaycanın iqtisadi inkişafını müasir meyarlara uyğun tədqiq etmək, alınan nəticələrə görə ölkənin iqtisadi inkişafının proqnoz modelini müəyyənləşdirmək aktualdır. Bu məqsədlə, məqalədə ÜDM-in əsas tərkib hissələri arasında əlaqələr araşdırılmış, müqayisəli və analitik təhlillər aparılmış, problemlər və onu doğuran səbəblər əsaslandırılmışdır. Məqalənin sonunda isə ÜDM ilə iqtisadiyyatın fəaliyyət sahələri arasında korrelyasiya əlaqəsi müəyyən olunmuş və ölkənin iqisadi inkişafının proqnz modeli təklif edilmişdir.

**Açar sözlər**: ÜDM, iqtisadi inkişaf, sənaye, iqtisadi artım, kapital.

## STRATEGIC DIRECTIONS OF THE DEVELOPMENT OF THE GROSS DOMESTIC PRODUCT BASED ON THE ACTIVE SPHERES OF AZERBAIJAN ECONOMY

**G. Suleymanov, G. Guliyeva, A. Ismailova**
*Azerbaijan State Oil and Industrial University, Baku, Azerbaijan*

**Abstract**. It is actual to analyze economic development of the Azerbaijan by modern criteria, to determine the actual prospects for economic development of the country. For this purpose, in the article components of GDP have been analized comparatively and analytically, has been the problems and reasons of their appearance were searched. At the end of article, the correlation between GDP and active spheres of economics were determined and the predicted model of economic development of the country was suggested .
**Keywords:** GDP, economic development, industry , economic growth, capital.

## СТРАТЕГИЧЕСКИЕ НАПРАВЛЕНИЯ ПОВЫШЕНИЯ ВНУТРЕННЕГО ВАЛОВОГО ПРОДУКТА НА ОСНОВЕ СФЕРЫ ЭКОНОМИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ АЗЕРБАЙДЖАНА

**Г. Сулейманов, Г. Гулиева, А. Исмаилова**
*Азербайджанский Государственный Университет Нефти и Промышленности, Баку, Азербайджан*

**Резюме**. Является актуальным исследованием экономического развития Азербайджана в соответствии с современными тенденциями, определение прогнозной модели экономического развития страны в соответствии с полученными результатами. С этой целью в статье исследованы связи между основными составными частями ВВП, проведен сравнительный анализ, изучены проблемы и их основные причины, дано их обоснование. В итоге статьи определена корелляционная связь между ВВП и сфер экономической деятельности, а также предложена прогнозная модель экономического развития страны.
**Ключевые слова**: ВВП, экономическое развитие, промышленность, экономический рост, капитал.

## 1. Giriş

Azərbaycanın iqtisadi inkişafı tarixi inkişaf mərhələləri ilə biləvasitə əlaqədardır. XXI əsrin ilk illərində iqtisadiyyatda üstünlük neft sektoruna aid idisə 2010-cu ildən qeyri-neft

sektorunda irəliləyiş başladı. Məhz bu illərdə əhalinin yoxsulluq səviyyəsi azalmağa başlamış, orta gəlirlilik nisbətən artmışdır.

İqtisadi inkişafı təmin etmək üçün iqtisadiyyatın ayrı-ayrı sahələri yaxşı öyrənilməli, hansı sahənin daha az, hansının daha çox gəlir gətirə biləcəyi proqnozlaşdırılmalıdır. Əks təqdirdə verilən səhv qərarlar iqtisadiyyatı tənəzzül səviyəsinə çatdıra bilər. Proqnozlaşdırma müxtəlif metodlarla aparıla bilər. Xüsusilə də dövrümüzdə inkişaf edən texnologiyaların inkişafı proqnozlaşdırmada modelləşdirmə metodlarının tətbiqinə səbəb olmuşdur. Proqnoz modeli qurmaqla ötən illərdə baş verən problemlərin həllini tapmaq və ya keçmişdə iqtisadi fəaliyyətdə qeyri-iradi baş verən səhvləri aradan qaldırmaq olar.

## 2. Azərbaycanın mövcud iqtisadi durumunun təhlili

İnkişaf Etmiş Ölkələrin təcrübəsini araşdırdıqda məlum olur ki, iqtisadi inkişafı xarakterizə edən bir sıra göstəricilər var. Bu göstəricilərdən bəzilərini aşağıdakı şəkildən görə bilərik (Şəkil 1).




**Şəkil 1.** İqtisadi inkişafı təyin edən əsas göstəricilər [8]

Bu meyarlar üzrə ölkənin iqtisadi inkişafını qismən təhlil etmək olar. Lakin bu göstəricilərlə yanaşı dünya səviyyəsində istifadə olunan digər göstəricilərdən də istifadə

etməklə iqtisadi problemləri və irəliləyişləri daha yaxşı aydınlaşdırmaq olar. İndi isə Azərbaycandakı mövcud iqtisadi vəziyyəti ÜDM vasitəsilə qiymətləndirək.

2016-cı ilin yekununda ən böyük nailiyyət də məhz qeyri-neft sənayesinin 5% artması oldu. Təbii ki, bunun səbəblərindən biri də kənd təsərrüfatının 2,6 % artımı olub. Bu artımın səbəbi böhrandan çıxış yolunun tapılması üçün görülən tədbirlər çərçivəsində digər sahələrə diqqətin artırılmasıdır. 2016-cı ildə gəlirlər 2-3 dəfə aşağı düşüb. Ölkəyə 8 milyard ABŞ dolları investisiya cəlb olunub. Daxili sərmayə 3,7 milyard olmuşdur. Neft Fondunun gəlirləri 4% aşağı düşüb. 2016-cı il üçün Dövlət Neft Fondunun 33 milyard vəsaiti olub. Bütün bu çətinliklərə baxmayaraq əmək haqları 7%, təqaüdlər isə 8% artıb. İqtisadi çətinliyi aradan qaldırmaq üçün 2016-cı ildə üzən məzənnəyə keçilmişdir.

2016-cı ildə ölkədə fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlar tərəfindən 59987,7 milyon manatlıq ümumi daxili məhsul istehsal edilmişdir. Məhsula və idxala xalis vergilər ÜDM-in 7,7 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM 6223,8 manata bərabər olmuşdur.

Şəkil 1-dən görünür ki, Azərbaycanın iqtisadi inkişafı bir sıra meyarlarla ifadə olunur. Bunlardan biri Ümumi Daxili Məhsuldur (ÜDM).

2016-cı il və 2017-ci ilin yanvar-fevral ayları üçün ÜDM-in həcmini aşağıdakı cədvəldə görə bilərik (Cədvəl 1).

**Cədvəl 1**.2016-cı ilvə 2017-ci ilin ilk iki ayı üçün iqtisadi göstəricilər [6]

| Göstəricilər | 2016-cı ildə, faktiki | 2017-ci ilin yanvar-fevral aylarında, faktiki |
|---|---|---|
| Ümumi daxili məhsul, milyon manat | 59987,7 | 10 042,6 |
| O cümlədən qeyri-neft ÜDM | 39403,1 | 5704,1 |
| Əhalinin hər nəfərinə düşən ÜDM, manat | 6223,8 | 1035,6 |
| Sənaye məhsulu, milyon manat | 32290,6 | 6539,3 |
| O cümlədən qeyri-neft sənayesi | 8584,4 | 1471 |
| Əsas kapitala yönəlmiş investisiyalar, milyon manat | 14903,4 | 2093,7 |
| O cümlədən tikinti-quraşdırma işlərinə | 10832,9 | 1455,8 |
| Kənd təsərrüfatı məhsulu, milyon manat | 5632,1 | 497,2 |

İqtisadi durumun təhlilini vermək üçün yalnız 2016-cı ilin göstərcisindən istifadə etmək kifayət etmir. Bunun üçün digər illərin göstəricisindən də istifadə etmək lazımdır. Buna görə də ayrı-ayrı göstəricilər üzrə iqtisadi inkişafı təhlil edə bilərik ( Cədvəl 2).

Cədvəl 2 – yə diqqət yetirsək görərik ki, son illərdə ÜDM-də sənayenin payı azalmış, kənd təsərrüfatı, eləcə də digər sahələrin payı artmışdır. Bunu əslində müsbət hal kimi qiymətləndirmək olar. Müstəqillik illərindən bu günə kimi iqtisadiyyatımızda əsas yeri neft və neft məhsulları tutub. Bu dəyişikliklər müvəqqəti olaraq ÜDM-i azaltsa da iqtisadiyyatın digər sahələrinin inkişafına səbəb olmuşdur. Hazırda mövcud olan böhranlı vəziyyətdən çıxış yollarından biri də digər sahələrin inkişafının sürətləndirilməsi hesab oluna bilər.

Ölkənin hərtərəfli inkişafına nail olmaq üçün əhalinin savadlılıq səviyyəsinin artırılması vacib amildir. Şəkil 2-ə nəzər yetirsək ölkəmizdə 15 yaş və yuxarı əhalinin savadlılıq səviyyəsində son illər ərzində heç bir dəyişiklik olmamışdır (Şəkil 2). Hal-hazırda Azərbaycanda təhsil sahəsində bir sıra çatışmazlıqlar var ki, bunları da məktəblərin və ali təhsil müəssisələrinin texnologiya və internetlə zəif təminatı, tədris proqramlarının tez-tez dəyişilməsi və buna uyğunlaşmanın müəyyən zaman tələb etməsi kimi amillərlə əlaqələndirmək olar.




**Şəkil 2.** a) 15 yaş və yuxarı əhalinin savadlılıq və təhsil səviyyəsi; b) Ömür müddəti (il).

İnkişaf etmiş ölkələrdə xidmət sahələrinin ÜDM-dəki payı 65-70%, inkişaf etməkdə olan ölkələrdə isə bu göstərici 50% təşkil edir. Lakin qrafikdən göründüyü kimi bu göstərici hətta xidmət sahəsinin ÜDM-dəki payının maksimum olduğu 2016-cı ildə belə 50% - i keçməmişdir. Lakin artımı danmaq olmaz. 2012-ci ilədək xidmət sahəsinin payı bəzi illərdə artmış, çox zaman isə azalmışdır.

**Cədvəl 2**. ÜDM və onun tərkib hissələrinin həcmi (faktiki göstəricilərlə)

| Sıra № | Göstəricilər | | Ölçü vahidi | 2005 | 2010 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| 1. | ÜDM-in həcmi | | mln. manat | 12522,5 | 42465 | 54743,7 | 58182 | 59014,1 | 54352,1 |
| 2. | Hər nəfərə düşən ÜDM-in həcmi | | manat | 1494,3 | 4753 | 5966,1 | 6258,3 | 6268 | 5703,7 |
| 3. | ÜDM-də kənd təsərrüfat, meşə təsərrüfatı və balıqçılığın payı | | %-lə | 9,1 | 5,5 | 5,1 | 5,4 | 5,3 | 6,2 |
| 4. | ÜDM-də sənayenin payı | | %-lə | 49,5 | 51,7 | 49,4 | 45,4 | 41 | 34 |
| 5. | ÜDM-də xalis vergilərin payı | | %-lə | 7,6 | 6,8 | 6,2 | 6,7 | 7,5 | 8,3 |
| 6. | ÜDM-də tikintinin payı | | %-lə | 9 | 8,1 | 10,1 | 11,6 | 12,6 | 12,1 |
| 7. | ÜDM-də nəqliyyat və rabitənin payı | | %-lə | 7,3 | 7,4 | 6,6 | 6,1 | 6,3 | 7,4 |
| 8. | ÜDM-də digər sahələrin payı | | %-lə | 17,5 | 20,5 | 22,6 | 24,8 | 27,3 | 32 |
| 9. | Emal sənayesində innovasiya və yüksək texnologiyalı məhsul istehsalının həcmi | | min manat | - | 4 384 | 22 65 6 | 11 30 8 | 12 31 9 | 929.7 |
| 10. | Sənayedə, kənd təsərrüfatı meşə təsərrüfatı və balıqçılıq, tikintidə, ticarət və nəqliyyat vasitələrinin təmirində, informasiya və rabitədə işləyənlər | | min nəfər | 193,2 | 181,8 | 181 | 197,2 | 197,2 | 187,1 |
| | | | | 45,7 | 41,2 | 42,4 | 43,7 | 45,3 | 46,3 |
| | | | | 61,7 | 79,6 | 111,5 | 108,8 | 108,2 | 95,3 |
| | | | | 250,3 | 286,8 | 277,2 | 280,7 | 284 | 284,8 |
| | | | | 27,4 | 24,3 | 26,1 | 26,1 | 26,3 | 26,1 |
| 11. | Ölkədə əsas kapitala qoyulan investisiya | | mln. manat | 5769,9 | 9905,7 | 15407,3 | 17850,8 | 17618,6 | 15957 |
| 12. | İqtisadi fəaliyyət sahələrində işləyənlər-cəmi | | min nəfər | 1297,1 | 1382,9 | 1480,7 | 1514 | 1519,7 | 1502,5 |
| 13. | Xarici ticarət dövriyyəsi | ixrac | mln. ABŞ dolları | 4347,2 | 21360,2 | 23908 | 23975,4 | 21828,6 | 11424,5 |
| | | idxal | | 4211,2 | 6600,6 | 9652,9 | 10712,5 | 9187,7 | 9221,4 |
| 14. | 15 yaş və yuxarı yaşlı əhalinin savadlılıq və təhsil səviyyəsi | | % | - | 99,8 | 99,8 | 99,8 | 99,8 | 99,8 |
| 15. | Ömür müddəti | | il | 72,4 | 73,6 | 73,9 | 74,2 | 74,2 | 75,2 |
| 16. | Yaşayış sahəsi alan və yaşayış şəraitini yaxşılaşdıran ailələrin sayı | | | 1343 | 743 | 413 | 661 | 547 | 501 |
| 17. | Ölkədə istehlak qiymətləri indeksi (əvvəlki ilə nisbətən) | | %-lə | 109,6 | 105,7 | 101,1 | 102,4 | 101,4 | 104 |

Çünki həmin illərdə bütün diqqət məhz risklərə qarşı həssas olan istehsal sahələrinə, xüsusilə də neft sənayesinə yönəlmişdir. 2012-ci ildən etibarən xidmət sahəsinə göstərilən diqqət, qayğı nəticəsində bu sahənin payı artmaqdadır.

Cədvəl 3-dən də görünür ki, ÜDM-in tərkibində qeyri dövlət bölməsinin payı azalmışdır (Cədvəl 3). Qeyri-dövlət bölməsinin sənayeyə marağı nisbətən azalmış, kənd təsərrüfatına və digər sahələrə isə marağı artmışdır.

ÜDM-in tərkibində qeyri-dövlət bölməsinin payını aşağıdakı şəkildən daha yaxşı izləmək olar (Şəkil 3).

**Cədvəl 3**.Ümumi Daxili Məhsulda qeyri-dövlət bölməsinin payı
(müvafiq illərin cari qiymətləri ilə, faizlə)

| Göstəricilər | 2005 | 2010 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|
| Ümumi Daxili Məhsul cəmi | 77.8 | 81.7 | 81.5 | 82.5 | 81.9 | 81.2 |
| O cümlədən | | | | | | |
| Sənaye | 84.5 | 87.4 | 87.3 | 87.4 | 86.1 | 83.0 |
| Tikinti | 90.4 | 72.0 | 76.0 | 84.5 | 84.3 | 84.5 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 97.8 | 99.7 | 99.4 | 99.4 | 99,8 | 99.8 |
| Ticarət, nəqliyyat vasitələrinin təmiri | 97.8 | 99.2 | 99.7 | 99.8 | 99.8 | 99.6 |
| Nəqliyyat  və anbar təsərrüfatı | 37.5 | 75.3 | 77.7 | 77.1 | 78.5 | 81.7 |
| İnformasiya və rabitə | 80.2 | 78.6 | 76.6 | 76.8 | 80.0 | 81.0 |
| Sosial və sair xidmətlər | 31.8 | 47.0 | 49.1 | 51.5 | 55,2 | 57.8 |




**Şəkil 3.** ÜDM-də qeyri-dövlət bölməsinin payı

## 3. Azərbaycanda ÜDM-in yüksəlməsinin proqnoz modeli

Azərbaycanda iqtisadi inkişafın ÜDM vasitəsilə proqnoz-təhlilini vermək üçün reqressiya modelindən istifadə edə bilərik. Reqressiya modeli vasitəsilə ÜDM və onun tərkib hissələri arasında asılılığı ifadə edə bilərik. Eyni zamanda bu model vasitəsilə ÜDM-lə bağlı bir sıra proqnozlar vermək mümkündür. Bunun üçün cədvəl 2-ə əsaslanaraq cədvəl 4-dəki məlumatlardan istifadə edə bilərik (Cədvəl 4).

**Cədvəl 4.** ÜDM və tərkib hissələri haqqında məlumat

| ÜDM-in həcmi | | Kənd-təsərrüfatı | Emal sənayesi | İnformasiya-rabitə | Ticarət-nəqliyyat | Tikinti |
|---|---|---|---|---|---|---|
| İllər | y | $x_1$ | $x_2$ | $x_3$ | $x_4$ | $x_5$ |
| 2005 | 12522,5 | 1 137,9 | 812,4 | 266,3 | 760,0 | 1 126,8 |
| 2010 | 42465 | 2 344,6 | 2 011,9 | 791,6 | 2 724,6 | 3 439,7 |
| 2012 | 54743,7 | 2 813,7 | 2 321,8 | 945,1 | 3 654,0 | 5 507,9 |
| 2013 | 58182 | 3122,2 | 2452,8 | 1011,9 | 4148,9 | 6753,7 |
| 2014 | 59014,1 | 3139,2 | 2777,8 | 1070,9 | 4652 | 7454,4 |
| 2015 | 54352,1 | 3359,3 | 2713,9 | 1087,7 | 5387,8 | 6499,5 |
| 2016 | 59987,7 | 3369,6 | 3120,3 | 1060,2 | 5387,8 | 6394,2 |

Reqressiya modelində aşağıdakı asılılıqdan istifadə edilir:

$$y = a_0 + \sum_{i=1}^{n} a_i x_i. \quad (1)$$

Tədqiqatın nəticəsindən bəlli olur ki, yuxarıdakı cədvəldən istifadə edərək aldığımız asılılıq xətti asılılıq deyil, loqarifmik asılıqdır. Bunun üçün aşağıdakı cədvəli quraq.

**Cədvəl 5**. ÜDM-in tərkib hissələrini ifadə edən ədədlərin loqarifmlə ifadəsi

| ln y | ln $x_1$ | ln $x_2$ | ln $x_3$ | ln $x_4$ | ln $x_5$ |
|---|---|---|---|---|---|
| 9,435282 | 7,03694 | 6,699993 | 5,584623 | 6,633318 | 7,027137 |
| 10,65644 | 7,75987 | 7,606835 | 6,674056 | 7,910077 | 8,14314 |
| 10,91042 | 7,942256 | 7,750098 | 6,851291 | 8,203578 | 8,613939 |
| 10,97133 | 8,046293 | 7,804986 | 6,919585 | 8,330599 | 8,817846 |
| 10,98553 | 8,051723 | 7,929415 | 6,976255 | 8,445053 | 8,91656 |
| 10,90324 | 8,119488 | 7,906142 | 6,991821 | 8,591892 | 8,779481 |
| 11,00189 | 8,122549 | 8,045684 | 6,966213 | 8,591892 | 8,763147 |

Bu zaman asılılıq aşağıdakı kimi ifadə olunur:

$$lny = \ln a_0 + \sum_{i=1}^{n} a_i \, lnx_i, \quad (2)$$

$$lny = \ln a_0 + a_1 \ln x_1 + a_2 \ln x_2 + a_3 \ln x_3 + a_4 \ln x_4 + a_5 \ln x_5. \quad (3)$$

İndi isə aşağıdakı əvəzləmələri aparaq.

$$lny = Y; \ \ln a_0 = A_1; \ \ln x_1 = X_1; \ \ln x_2 = X_2; \ \ln x_3 = X_3; \ \ln x_4 = X_4; \ \ln x_5 = X_5.$$

Buradan da,

$$Y = -3{,}8 + a_1X_1 + a_2X_2 + a_3X_3 + a_4X_4 + a_5X_5. \quad (4)$$

Bu düsturla apardığımız hesablamadan isə aşağıdakı nəticəni alırıq:

$$lny = \ln(-3{,}8) + 1{,}6a_1 + 0{,}78a_2 + 0{,}9a_3 - 1{,}3a_4 + 0{,}04a_5. \quad (5)$$

Daha sonra alınan nəticəni logarifmdən çıxarsaq asılılığı aşağıdakı kimi alarıq:

$$lny = 0{,}02 + 1{,}6a_1 + 0{,}78a_2 + 0{,}9a_3 - 1{,}3a_4 + 0{,}04a_5. \quad (6)$$

Qurduğumuz reqressiya asılılığının xəta payı 0,04-dür. Xəta payı çox aşağı olduğundan model səmərəli hesab olunur. Dəyişənlərin korrelyasiya asılılığı $R^2$ ilə ifadə olunur ki, bu əlaqə Fişer kriteriyası vasitəsilə hesablanır. Yuxarıdakı asılılıqda $R^2$=0,99. Bu onu göstərir ki, model adekvatlığa uyğundur.

Bu asılılıqdan görünür ki, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılığın ÜDM-də payının 1% artması ümumilikdə ÜDM-in həcmini 4,9%, emal sənayesinin 1% artması ÜDM-i 2,2%, informasiya və rabitənin, ticarət və nəqliyyatın, tikintinin payının 1% artması isə uyğun olaraq ÜDM-i 2,45%, 0,27%, 1,04% artıra bilər. Modelin xəta payı təqribən 0,05-ə bərabərdir. Ticarət və nəqliyyat sahəsinin ÜDM-də payının 1,3% azalması ÜDM-i 1 % azaldar. Bütün bunları ümumiləşdirərək aşağıdakı nəticə və təklifləri irəli sürmək olar.

**Nəticə və təkliflər.** İqtisadi inkişafa nail olmaq üçün yalnız bu günün iqtisadi problemlərinin həll olunması kifayət etmir. Bunun üçün həm də gələcək perspektiv dövr üçün ayrı-ayrı iqtisadi inkişaf elementlərinin əldə olunan göstəricilərin köməyi ilə proqnozlaşdırma aparılmalıdır.

Tədqiqatımızda Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"-dən istifadə olunmuşdur. Starteji Yol Xəritəsindən istifadə etməklə qeyd etmək olar ki, Azərbaycanın iqtisadi inkişafı üçün aşağıdakı fəaliyyətlər hədəf seçilmişdir [1]:

- ✓ Qeyri-neft sektoruna yönəldilmiş birbaşa xarici investisiyaların bu sektorun ÜDM-dəki payının hazırkı 2,6 faizlik göstəricidən 2025-ci ilə qədər 4 faizə çatdırılması;
- ✓ Qeyri-neft sektoru üzrə ixracın 2015-ci ildəki adambaşına 170 ABŞ dollarından 2025-ci ildə ən azı 450 ABŞ dollarına qaldırılması;
- ✓ Ticari mal və xidmətlər sektorunda, məsələn istehsal və ya turizm sektorlarında 2025-ci ilə qədər 150 min əlavə iş yerinin yaradılması;
- ✓ Dövlət büdcəsinin ARDNF-in transfertlərindən asılılığının azaldılması.

Biz tədqiqatımızda iqtisadi inkişafın əsas göstəricilərindən biri olan ÜDM və onun tərkib hissələri arasında əlaqəni göstərmək üçün reqressiya proqnoz modelini tətbiq etdik. Bu modelin tətbiqi nəticəsində aydın oldu ki, ÜDM-in təhlilini apardığımız tərkib hissələri arasında kənd-təsərrüfatı, meşə təsərrüfatı və balıqçılığın həcminin artırılması iqtisadiyyatın digər sahələrinə nisbətən ÜDM-in həcmini daha çox artırır.

## Ədəbiyyat


1. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi", Azərbaycan Respublikası Prezidentinin 06.12.2016-cı il fərmanı.
2. Azərbaycanın statistik göstəriciləri, ADSK, Bakı, 2016.
3. Coyle D., (2014) GDP: A Brief but Affectionate History, Princeton University Press.
4. http://data.worldbank.org/
5. http://www.imf.org/external/index.htm
6. http://www.stat.gov.az/
7. The Structure of GDP as an Indicator For Economic Development, International Journal of Research in Business Management (IMPACT), 2014
8. www.vikipediya.az